# **Azərbaycanın xalq artisti** Rasim Balayev:



- Son günlər Gəncədə bir-birinin ardınca törədilən qanlı hadisələrə Azərbaycanı sevən, onun vətəndaşı olan hər kəs kimi kəskin şəkildə etirazımı bildirirəm, bu, yolverilməzdir. Mən qətiyyətlə deyirəm ki, bu iğtişaşı törədənlər Azərbaycan dövlətinin düşmənləridir. Bu gün müstəqil dövlət kimi formalaşan Azərbaycan böyük inkişaf yolundadır. Azərbaycanın ikinci böyük şəhəri olan Gəncədə hadisələri təşkil edən və törədənlər Azərbaycan dövlətinin düşmənləridirlər. Belə hadisələr təsadüfi baş vermir, xüsusi sseniri ilə hazırlanır. Mən bir sənət xadimi kimi deyərdim ki, Azərbaycanın sürətli inkişafı, dövlətimizin regionda lider ölkəyə çevrilməsi düşmənlərimizi çox narahat edir. Azərbaycanda sabitliyi pozub, terror aktı törətmək istəyən qüvvələr var ki, onların məqsədi anarxiya yaradaraq, anti-Azərbaycan planını həyata keçirməkdir. Biz vətənin şərəfini uca tutan, onun nailiyyətlərinə sevinən Azərbaycan vətəndaşları, yalnız Prezidentimizin ətrafında daha da sıx birləşməliyik. Ölkədə sabitlik, vətəndaş həmrəyliyi, xalq -iqtidar birliyi belə anti-Azərbaycan qüvvələri qarşısında möhkəm çəpərdir. Xalqımız, məhz bu dəyərlər ilə silahlanıb. Bu halları pozmağa çalışmaq, vətənə xəyanətin göstəricisidir. Aramızda xainlərə yer yoxdur.

Vətənini sevən, dövlətinə sadiq olan hər kəs Azərbaycanın bu günü və gələcəyi naminə çalışmalıdır. Bizi Dağlıq Qarabağ münaqişəsini həll etmək, torpaqlarımızı düşməndən azad etmək kimi ciddi bir məsələ narahat etməlidir. Azərbaycan vətəndaşları Azərbaycan Prezidenti Cənab İlham Əliyevin ətrafında sıx birləşməlidir.

***ZÜMRÜD BAYRAMOVA***

Səs.- 2018.- 12 iyul.- S.11.